# DOSTLAR



*Şahvələd ƏLİYEV*

*(Əvvəli ötən saylarımızda)*

Bir dəfə çay içəndə Adil müəllim Əliağaya dedi:

- Əliağa, sən bilərsən, bu nədəndi? Sizin rayonda istirahətdə olanda orada içdiyim çayın tamı ilə burdakının fərqi var, bu nədəndir?

Əliağa cavab verir:

- Bilirsən, Adil müəllim, biz gözümüzü açandan bizim əkin sahələrində çay kollarını görmüşük. Azərbaycanın başqa bölgələrində pambıq becərildiyi halda, bizim zonada isə çay əkilərək becərilir. Salınmış çay plantasiyalarından yığılan çay, fabrikdə istehsal edilərək növlərə ayrılır. Sənə də əla növdən dəmlənmiş çay veriblər və sən fərqi hiss etmisən. Əlbəttə ki, çayı dəmləmək qaydasını bilən peşəkar çayçılarımızın dəmlənmiş çayı olsun.

Bu xatirələr içində və həm də çox yorğun olduğundan Əliağanın gözləri istər-istəməz yumulurdu və bir az keçmişdi, onu yuxu apardı.

Alik isə hələ yatmamışdı, gecənin yarısına qədər oyaq qalaraq, səhər nə etməyi barədə götür-qoy edirdi. O, birinci növbədə işlədiyi müddət ərzində yığdığı pulları yerbəyer etməyə başladı. Bundan başqa o, erməni dostundan aldığı zəhərli narkotik maddəni də özü ilə götürüb-götürmədiyini dəqiqləşdirdi.

Narkotik maddəni götürməyinə tam əmin olduqdansonra fürsət axtarırdı ki, ondan istifadə etsin. İndi həmin fürsət artıq onun əlinə düşmüşdü.

Alik gecə yarısı, Əliağanın həmyerli dostlarını yanına çağırıb, öz fikrini onlara bildirdi. Bu iki nəfəri - Əliağanın ən yaxın dırnaqarası dostlarını Alik çoxdan öz tərəfinə çəkmişdi. Dostlar iki milyon yox, üç milyon dollar yığdıqlarını Alikə bildirdilər. Bunu eşidəndə Alik çox sevindi və onlara öz təşəkkürünü bildirərək dedi:

-Səhər Əliağa müəllimin işini bitirəndən sonra, hərəyə bir milyon götürüb aradan çıxırıq. Marşurutumuz Rostov vilayətinə olacaqdır. Orada mənim dostum var. O, bizim yolumuzu gözləyir. Əliağa müəllimin yemək-içməyinə limon dadı verən zəhəri qatıb, onu o dünyalıq edəcəyik. Yemək zamanı o, yeməklərin zəhərli olduğunu hiss etməz. Bu elə bir narkotik maddədir ki, o bədənə daxil olan kimi, adamı yatızdırır. Baxan da elə bilir ki, o yatıb, dərin yuxuya gedib. Həmin maddə tədricən onun qanına sovrularaq onu zəhərləyir və onu o dünyalıq edir.

Xülasə, səhər açıldı. Açılan səhər güvəndiyi və ona arxalanan günəş ilə qaranlığa öz gücünü göstərib, ona qalib gəldiyini bir daha sübut edərək şüaları ilə hər tərəfi nura qərq etdi və insanlara xoş gün arzuladı. Belə xoş gün isə Alikə aid deyildi. O, özünün məkrli işini həyata keçirmək fikrində idi.

Və o, dünən gətirdiklərini kafe işçilərinə təhvil vermişdi, indi isə onların yanına gedib necə hazırlıq gördükləri ilə maraqlanırdı. O, mətbəxə girdi və hər şeyin yerli-yerində olduğunu görüb ofisiantlara tapşırıq verərək dedi:

- Əliağa müəllim hələ yatır, yuxudan duran kimi siz fəaliyyətə başlayırsız. Bir az keçmişdi Əliağa müəllim yuxudan ayıldı və o artıq etibar etdiyi dostları ilə keçib süfrə başında oturdu. Dostlar ofisiantların hazırladıqları kabablara girişdilər. Əliağa müəllim içmədiyinə görə dostları ondan gizlin, su butulkalarına doldurduqları araqdan balabala vururdular. Əliağa müəllim isə təbii şirələrdən içirdi. Məclis yavaş-yavaş qızışırdı. Əliağanın dostları ona canfəşanlıq göstərirdilər. Onlar göz ilə qaş arasında onun yediyi kabablara limon dadı verən zəhərli maddəni qatırdılar.

Əliağa müəllim, kababdan iştaha ilə yeyə-yeyə dostlarına deyirdi:

-Mən indiyəcən belə limon dadı verən kabab yeməmişdim. Necə də dadlı idi. Əhsən bunu təşkil edənə də, bişirənə də. Sonra o, kənara çəkildi və “Deyəsən, çox yedim, məni bağışlayın” deyib süfrədən aralandı. Yuxu onu necə gic eləmişdisə, o dəqiqə yuxuya getdi.

Bunu çoxdan gözləyən dostlar tez yer-yığışa başladılar. Özlərinə lazım olan şeyləri maşına yüklədilər və Alik kafe işçilərinə yaxınlaşaraq dedi:

-Əliağa müəllim bizə tapşırıq verib və bizi təcili şəhərə yolladı. Gördüyünüz kimi o yatıb istirahət edir və xahiş etdi ki, onu narahat etməsinlər. Biz şəhərə gedib onun tapşırıqlarını yerinə yetirdikdən sonra axşamüstü bura qayıdarıq.

Ofisiantlar heç nə demədi və öz işləri ilə məşğul olmağa başladılar. Onlar ehtiyatla süfrəni yığışdırdılar ki, birdən səsə Əliağa müəllim oyanar. Dostlar isə tez maşına oturub aradan çıxırlar.

Axşamüstü oldu, ofisiantlar Əliağa müəllimin hələ də oyanmadığını görüb narahat olmağa başladılar. Bir tərəfdən də şəhərə göndərdiyi adamların hələ də qayıtmamağı onları çaş-baş saldı. Onlar tez öz müdirlərinə zəng edib, bu haqda ona xəbər verdilər. Müdir Rəşid müəllim tez rayondan özünü çatdırdı. O, Əliağa müəllimi yaxşı tanıyırdı və ona böyük hörməti vardı. Əliağa müəllimin ağırağır nəfəs aldığını görəndə tez dedi:

-Bu yatan adama oxşamır, o, deyəsən, zəhərlənib. Tez təcili yardıma zəng edin. Onlar təcili yardıma zəng etdilər.

Rayondan təcili yardım gələnə qədər xeyli vaxt keçdi. Nəhayət, təcili yardım gəlib çatdı. Həkim tez ona yaxınlaşdı, nəbzini yoxladı, gözlərinə baxdı, təzyiqini ölçdü və onu müayinə edəndən sonra başını bulayıb Rəşid müəllimin üzünə baxdı:

-Ümid Allaha qalıb, Rəşid müəllim, o zəhərlənib, onu təcili xəstəxanaya çatdırmaq lazımdır.

Xülasə, Əliağa müəllimi təcili xəstəxanaya apardılar...

Alikgil dayanmadan hərəkət edirdilər. Çox fırıldaqlardan çıxan Alik hər ehtimala qarşı, şirkət maşının nömrə nişanını dəyişmişdi. O, həmişə bu yol ilə gedib-gəldiyinə görə, onu tanıyırdılar. Ona görə də heç bir maniəyə rast gəlmədən rahat Rusiya sərhədini keçdilər və dayanmadan sürətlə Rostov şəhərinə doğru hərəkətə başladılar. Yolda yemək-içməyə az vaxt sərf etmələri istisna olmaqla, onlar dayanmadan hərəkət edirdilər və gecə yarısı şəhərə çatdılar.

Alik Maxaçqalada işlədiyi dostu Aşotun yanına Rostova tez-tez gedərdi. O vaxtdan şəhərin kənarında özünə bir ev kirayə götürmüşdü və həmişə illik kirayə pulunu əvvəlcədən verərdi. O, çox uzaqgörənlik edib sanki gec-tez belə bir cinayət işi törədəcəyini əvvəlcədən bilirmiş kimi bu evi kirayəyə götürmüşdü və indi də arxayın bu evə gəlib çatdılar. Evin qapısını Alik açdı. Otağa keçən dostlar çox yorğun olduğundan, hərə bir tərəfdə kəlləni qoyub yatdılar. Səhər günortaya yaxın onlar yuxudan oyandılar. Dostlar bayıra çıxıb geniş həyət-bacası olan və bağda ağaclar arasında xudmani baxçanı görəndə sevindilər və Alikin belə uzaqgörənliyinə görə ona təşəkkür etdilər.

Onlar maşına yığdıqlarını boşaldıb maşını şəhərə sürdülər. Pul, nə qədər desən onlarda, dünya veclərinə deyildi. Şəhərdə lazım olan şeyləri artıqlaması ilə alıb evə qayıtdılar. Onlar baxçada hazırlıq işləri görüb geniş bir stol bəzədilər. İndi artıq bura dostu Aşotu dəvət etmək məqamı çatdı və Alik dostu Aşota zəng etdi:

-Aşot, salam, Alikdi. Nə var, nə yox, necəsən?

Telefonda cavab eşidildi:

-Kim, Alik? Ara, Alik, sənsən, özün necəsən, ha! Bakıda işlərin necə gedir?

-Nə Bakı, Aşot, sənə Rostovdan zəng edirəm.

-Nə, sən Rostovdasan? Ara, bəlkə zarapat edirsən, ha! Ara, doğrudan, Rostovdasan?

-Sən öl yox, özüm ölüm deyirəm. Dünən gecə yarısı çatmışam, öz kirayə tutduğum evimdəyəm, səni də bura dəvət edirik.

-Baş üstə, göz üstə, Alikcan, bu saat gəlirəm.

Bir az keçmişdi həyətin qapısında bahalı qara bir “cip” dayandı.

Aşot maşından düşdü. Bu, ortaboylu, şişman qarnı, iri ətli sifətində itmiş gözləri, yekə burnu, sinəsinə sallanmış buxaqı, qat-qat boynunda ətlə örtülmüş peysəri olan bir kişi idi. Aliklə eyni yaşda olmasına baxmayaraq, o, çox yaşlı görsənirdi. Ondan fərqli olaraq Alik uzun boylu, arıq, qara gözləri, almacıq sümükləri bayıra çıxmış arıq sifəti, sağ qaşının üstündə çapığı olan bir adam idi. O, Aşotla gəzəndə ata-oğul təsiri bağışlayırdı.

Alik tez ona sarı gələrək onu bərkbərk qucaqladı. Çoxdan görüşməyib birbirinə tamarzı qalan adamlar kimi görüşüb-öpüşüb ayrıldılar.

Aşot danışmağa başladı:

-Ara, səhərdən maşında gələndə pikirləşirdim ki, görəsən, bu Alik nəyə görə o cür qazanclı işdən ayrılıb bura gəlib ha? Məsəb haqqı düz deyirəm.

Alik dedi:

-Səni görməyə gəlmişəme səni, gəldim ki, səninlə görüşüm.

-Haa, çox gözəl - deyib Alikin dostlarına yaxınlaşdı və onlarla da qucaqlaşıb görüşdü.

Onlar Aşotu stola sarı apardılar. Aşot geniş açılmış stolu götürüb, onun üstündə cürbəcür bahalı içkilər, erməni konyakından tutmuş, viskiyəcən, sonra cürbəcür yeməkləri görəndə başa düşdü ki, bunlar yaxşı gəlib, kalan pulları var.

Dostlar yeyib-içməyə başladılar.

Alik erməni konyakından dostların badələrinə süzüb ayağa qalxaraq sağlıq dekməyə başladı. Sağ qaşında çapıq olan gözünü bir-iki dəfə yumub açandan sonra sözə başladı:

-Əziz dostlar, əziz dostum Aşot, bizim məclisə xoş gəlib, səfa gətirmisən. Mən səninlə uzun müddətdir ki, dostam. Çox acılı-şirinli günlər keçirmişik. Bütün bunlara baxmayaraq, bizim dostluğumuz hələ də davam edir və sənin nəzərinə çatdırmaq istəyirəm ki, gördüyün bu mənim dostlarım - Əli, Vəli ki var, onlar həm də sənin dostlarındır. Məni necə tanıyırsansa, onları da cür tanı. Çox “daverni” insanlardı. Biz sənin yanına elə-belə gəlməmişik, biz kalan pulla gəlmişik. Biz indi milyonçuyuq, milyonçu. Bizim milyonlarımız var. Gəlmişik ki, bir köhnə dost kimi səni də özümüzlə götürüb bir səyahətə çıxaq. O aptekdi, nədi açmısan, bağla onu. Sabah dünyanın ən səfalı yerlərindən biri olan Antaliyaya uçuruq. İçək bu badələri şəxsən Aşot dostumuzun sağlığına.

Dostlar ayağa qalxıb, Aşotun badəsinə öz badələrini toqquşdurdular.

Bu, içki məclisində ürəklər açılmış, söhbətlər isə davam edirdi. Dostlar, Aşotu xeyli təriflədilər.

Axırda Aşot da ayağa qalxıb, dostlarının şəninə badəsini qalxızıb, sağlıq deməyə başladı:

-Ara, mən maşında gələndə də, indi burada sizi görəndə də bərk pikrə getmişdim. Pikirləşirdim ki, eli, bunlar eləbelə Bakıdan bura gəlməzlər, indi gördüm ki, doğrudan da siz kalan pul qazanıb gəlmisiz. Çünki, dostlar, sizin mənim təcrübəmdən bəhrələnən Alik kimi dostunuz var. Bilirdim ki, məhzəb haqqı, bu belə də olmalı idi. Ona görə də, başda Alik olmaqla mən sizin qulluğunuzda həmişə hazır. Üzünü təzə dostlara tərəf tutub davam etdi:

-Sizi deyə bilmərəm, ancaq mənlə bu Alik türmədə çox əziyyətlər çəkmişik. Səhərdən, axşamacan eşşək kimi yük daşımışıq, pəhləlik etmişik, yer qazıb daş daşımışıq və s. haa! Düz deyirəm, məhzəb haqqı. İndi isə sizə təşəkkür edirəm ona görə ki, o ağır günləri yaddan çıxarmaqdan ötrü, məni istirahətə dəvət edirsiniz. İçirəm sizin sağlığınıza, sağ olun, öpürəm sizi.

Dostların məclisi səhərin açılmasına az qalmış hələ də davam edirdi...

Təcili yardım maşını, Əliağa müəllimi aparandan sonra istirahət zonasının müdiri Rəşid müəllim xəstəxanaya zəng edib xəbərdarlıq etmişdi.

Təcili yardım maşını, uğultu sala-sala xəstəxanaya daxil olanda, artıq həkimlər hazırlıq işləri görmüşdülər.

Onlar Əliağa müəllimi təcili reanimasiya otağına apardılar. Azərbaycanda xeyriyyəçi kimi tanınan bu xeyirxah insanı vəziyyətdən çıxarmaq üçün əlindən gələni etməyə başladılar. Ağır-ağır nəfəs alan Əliağa müəllimə zəhərlənməyə qarşı sistemlər keçirib qanını təmmizləməyə başladılar.

Orqan işçiləri də bu hadisədən xəbərdar olub bura gəlmişdi. Hamı reanimasiya otağının ətrafına yığışmışdı və səbirsizliklə həkimlərin rəyini gözləyirdilər...

Əliağa ailəsini rayona istirahətə göndərəndə onun arvadı Qəmər xanımın heç ürəyindən deyildi rayona getmək. O, Əliağasız rayona getmək istəmirdi, Əliağa təkid edəndə könülsüz razılaşıb rayona yola düşdü.

Qohumlar onun ailəsini, uşaqlarını (Əliağanın iki oğlu bir qızı vardı) görməyə gələndə Qəmər xanımın kefsiz olduğunu hiss etdilər. Onu darıxmağa qoymamaqdan ötrü, onu tək buraxmayıb, həmişə yanında olurdular. Baldızı gecə onunla qalırdı.

*(Davamı var)*